Azərbaycan Beynəlxalq Bankında risklərin idarə edilməsi haqqında

# M Ə L U M A T

- "Azərbaycan Beynəlxalq Bankı" ASC-də risklərin idarə edilməsi Bankın Riskləri İdarəetmə Komitəsi tərəfindən aparılır.
- Komitə Bankın daimi işçi orqanıdır və Bankın fəaliyyəti nəticəsində yaranan risklər haqqında məlumata və biliyə malik olan İdarə Heyətinin üzvlərindən və Bankın struktur bölmələrinin rəhbərlərindən ibarət olmaqla Müşahidə Şurası tərəfindən təşkil olunur. Komitəyə İdarə Heyətinin sədri rəhbərlik edir.
- Komitə bank risklərinin idarə edilməsi məqsədi ilə Bankın mövcud daxili komitələrinin fəaliyyətini əlaqələndirir. Komitə qanunvericiliklə müəyyən olunan qaydada Bankın Müşahidə Şurasına hesabat verir.
- Komitə aşağıdakı səlahiyyətlərə malikdir:
    - Bankın müxtəlif risk növləri üzrə müvafiq limitləri hazırlamaq və İdarə Heyəti tərəfindən müəyyən edilkdikdən sonra Müşahidə Şurasının təsdiqinə təqdim etmək;
    - Bankın Kredit və Aktiv və Passivləri İdarəetmə Komitələri üçün müvafiq qaydada təsdiq olunmuş limitlərin icra vəziyyətini qiymətləndirmək;
    - Risklərin idarə edilməsi standartları və qaydaları çərçivəsində Bankın struktur bölmələrinə icrası məcburi olan göstərişlər vermək;
    - Qanunvericiliklə müəyyən edilən digər səlahiyyətləri həyata keçirmək.
- Komitənin vəzifələri aşağıdakılardan ibarətdir:
    - İri risklər və onların azaldılması üzrə Müşahidə Şurasına təkliflər vermək;
    - İnvestisiyalar üzrə itkiləri qiymətləndirmək, habelə onların balansdan silinməsi və dəyərinin qaytarılması üzrə Müşahidə Şurasına hesabat vermək;
    - Əsas vəsaitlərin həcmini qiymətləndirmək və onların cari ildə maliyyə komponenti kimi saxlanılmasına dair təkliflər vermək;
    - Risklərin idarə edilməsi qaydalarını hazırlamaq, İdarə Heyəti ilə razılaşdırdıqdan sonra təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək;
    - Risklərin idarə edilməsi qaydalarını vaxtaşırı qiymətləndirmək və tələb olunduqda yeniləşdirmək;
    - Risklərin idarə edilməsi prosesini əməliyyat cəhətdən daimi dəstəkləmək və həmin prosesin həyata keçirilməsi üzrə Bankın aidiyyəti struktur bölməsi və ya əməkdaş-larının müəyyən edilməsini təmin etmək;
    - Ödənilməmiş borclar müqabilində balansa götürülmüş və ya balansa götürüləcək əmlak və onların satışı üçün həyata keçirilən tədbirlər barədə Müşahidə Şurasına hesabat vermək;
    - Qanunvericiliklə müəyyən edilmiş digər məlumatları Müşahidə Şurasının müzakirəsinə təqdim etmək, habelə digər vəzifələri yerinə yetirmək.
- Komitənin tərkibi və iclaslarının keçirilməsi qaydası

- İdarə Heyətinin sədri – Komitənin sədri;
- İdarə Heyəti sədrinin birinci müavini – Komitənin sədr müavini;
- İdarə Heyəti sədrinin müavinləri – Komitənin üzvləri;
- Maliyyə menecmenti departamentinin direktoru – Komitənin üzvü;
- Kredit departamentinin direktoru – Komitənin üzvü;
- Bank təhlükəsizliyi departamentinin direktoru – Komitənin üzvü;
- Mərkəzi filialın müdiri – Komitənin üzvü;
- İnformasiya texnologiyaları departamentinin direktoru – Komitənin üzvü;
- Strateji inkişaf departamentinin direktoru – Komitənin üzvü.

• Komitənin plan üzrə iclasları rübdə 1 dəfədən az olmayaraq keçirilir. Komitənin növbədənkənar iclasları onun üzvlərindən birinin təşəbbüsü, habelə Müşahidə Şurasının, İdarə Heyətinin və Audit Komitəsinin müraciəti ilə çağırıla bilər.